# Yunus OĞUZ-65



Hörmətli, Yunus müəllim!

Sizi - tanınmış yazıçı-publisisti 65 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz, 1960-cı il iyulun 22-də Əli Bayramlı (indiki Şirvan) şəhərində anadan olubsunuz.

1981-83-cü illərdə Əli Bayramlı (Şirvan) pambıqtəmizləmə zavodunda mülkü müdafiə qərargahının rəisi və komsomol katibi işləyibsiniz. 1983-88-ci illərdə Rostov Dövlət Universitetinin fəlsəfə fakultəsində təhsil alıbsınız.

Təhsilini başa vurduqdan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda 1988-92-ci illərdə kiçik elmi işçi, 1991-92-ci illərdə "Ordu" qəzetinin baş redaktoru, 1993-cü ildə Azərbaycan Respublikası Prezidentinin müşaviri vəzifəsində işləyibsiniz.

1995-ci ildən bu günə qədər "OLAYLAR" qəzeti və "OLAYLAR" informasiya agentliyinin baş redaktoru vəzifəsində çalışırsınız.

2005-ci ildə prezident İlham Əliyev tərəfindən "Tərəqqi", 2019-cü ildə "Cümhuriyyət" medallarına, 2010-cu ildə "Əməkdar mədəniyyət işçisi" adına layiq görülüb. TÜRKSOY xətti ilə Çingiz Aytmatov adına medalla təltif olunubsunuz. 2023-cü ildə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası tərəfindən fəxri doktor adına layiq görülüb. Prezident təqaüdçüsü və Özbəkistan Turan Elmlər Akademiyasının akademikisiniz.

15 oktyabr 2003-cü ildə keçirilən prezident seçkilərində namizədliyiniz qeydə alınıb və Azərbaycan Respublikasının hazırkı prezidenti İlham Əliyevin xeyrinə namizədliyinizi geri götürübsünüz.

İlk kitabınız 1994-cü ildə çap edilib ("Siyasi hakimiyyətin idarəetmə prinsipləri"), 1996-cı ildə "Qadın ulduzu" adlı povesti işıq üzü görüb.

2002-ci ildə "Qədim Anadolu və Azərbaycan türkləri", 2003-cü ildə "Qarabağ nəzarətsiz zona" ingilis dilində, 2006-cı ildə "Türkün tarixinə yeni bir baxış" (bu kitab fars, türk, rus dillərində də müvafiq ölkələrdə işıq üzü görüb), 2007-ci ildə "Attila", 2008-ci ildə "Nadir şah" romanı, 2009-cu ildə "Türkün gizli tarixi" və "Təhmasib şah" romanlarınız çap olunub. "Qədim türklər və passionarlıq nəzəriyyəsi" adlı elmi əsərin müəllifisiniz.

2009-cu ildə "Nadir şah" romanınız Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Qızıl kəlmə" mükafatının "Şans" ödülünə layiq görülüb.

2010-cu ildə "Nadir şah", "Təhmasib şah", "Attila" və "Qədim türklər və passionarlıq nəzəriyyəsi" kitablarınız Türkiyə türkcəsinə çevrilib və bu ölkədə böyük tirajla nəşr olunub.

"Nadir şah" romanı 2010-cu ildə ingilis dilində Londonda işıq üzü görüb.

"Türkün tarixinə yeni bir baxış" kitabı 2008-ci ildə Təhsil Nazirliyinin qərarı ilə ali məktəblərdə dərs vəsaiti kimi çap olunub. 2011-ci ildə yenə Təhsil Nazirliyinin qərarı ilə "Nadir şah" və "Təhmasib şah", iki cildlik "Əmir Teymur" tarixi romanlarınız sinifdənxaric oxu ədəbiyyatı kimi sifariş edilib və çapdan çıxıb.

"Nadir şah" dörd dəfə, "Təhmasib şah" isə üç dəfə yenidən nəşr olunub.

2011-ci ildə Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə "Qədim türklər və passionarlıq nəzəriyyəsi L.N.Qumilyovun tədqiqatlarında" adlı elmi kitabınız işıq üzü görüb və TN-i tərəfindən dərs vəsaiti kimi çap olunub. Bu kitab eyni zamanda 2012-ci ildə İstanbulda nəşr olunub.

2011-2012-ci illərdə iki cildlik "Əmir Teymur - zirvəyə doğru" və "Əmir Teymur - dünyanın hakimi" tarixi romanınız dərc olunub.

Əsərləriniz dünyanın 20-dən çox ölkəsində dərc olunub. Dünyanın bir çox ölkəsində mükafatlara layiq görülüb.

2013-cü ildə "Şah arvadı və cadugər", 2015-ci ildə "Sultan Alp Arslan", 2017-ci ildə "Atabəy Eldəniz" tarixi romanlarınız çap olunub.

Üç pyesin - "Attila", "Nadir şah", "Altun dəftər"-in müəllifisiniz. "Nadir şah" pyesiniz 2014-cü ildən Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulub.

Sonuncu "Səfəvi şeyxi" (2019), "Ovçu (2018)", "Çingiz xan"(2020), "Uçurum (2021), "Çinqiz xan" (rus dilində) (2022), "Keçmişdən gələcəyə nə daşıyırıq? Tarix ibrətdir" (I kitab) (2022), Felyetonlar, esseler (2023), "Cığır" (2023) romanlarınızdır.

2009-cu ildə "Nadir şah" romanınız Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən "Qızıl kəlmə" mükafatının Şans ödülünə layiq görülüb.

Əsərləriniz Nyu-Yorkda, Londonda, Moskvada, İstanbulda, Kiyevdə, Daşkənddə, Almatada, Bişkekdə, Varşavada və başqa şəhərlərdə nəşr edilib.

Hörmətli Yunus Oğuz!

Sizi bir daha 65 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, yaradıcılığınızda yeni-yeni uğurlar arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**